IV BÖLMƏ.
SOSİAL MÜNASİBƏTLƏR

UOT 364.3, JEL: H53; H55; I38

Emin Əli oğlu ƏLİRZAYEV
iqtisad üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
E-mail: alirzayev@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.393

AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL MÜDAFİƏNİN FORMALAŞMASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycan Respublikasında sosial müdafiənin xronoloji inkişafının prioritetlərini nəzərdən keçirməklə sosial müdafiənin perspektiv sistemli inkişafı məqsədilə tədqiqatlarda həmin prioriet istiqamətlər üzrə sosial müdafiənin təşkili və idarə olunmasında dəyərləndirilməmiş olaraq qalan və təkmilləşdirilməyə ehtiyac olan tənzimləmə obyektlərinin və elementlərinin müəyyən edilməsi üçün konseptual əsasların möhkəmləndirilməsidir.

Tədqiqatın metodologiyası – Tədqiqat sahə üzrə idarəetmə səviyyəsində sosial müdafiənin təşkilinin təkmilləşdirilməsi istiqamətində tətbiq edilmiş başlıca qanunvericilik islahatları və strateji dövlət proqramlarının tədqiqinə söykənməklə müəllif dəyərləndirilmələr müstəvisində ümumi elmi təhlil metodlarına əsaslanır.

Tədqiqatın nəticələri – Azərbaycanda sosial müdafiənin inkişafında sistemli sosial müdafiənin təmin olunması istiqamətində retrospektiv əsasda müəyyənləşdirilmiş hədəflərə nəzərən yaxın perspektivdə təkmilləşdirilməsi tələb olunan sosial müdafiə komponentlərinin mənzərəsini formalaşdırır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Tədqiqat çıxarılan əsas nəticələr nəzərə alınmaqla növbəti perspektivdə sosial müdafiənin sistemli inkişafının təmin olunması üçün təkmilləşdirilməyə ehtiyac olan həlqələrin idarəetmə səviyyəsində nəzarətə götürülməsi üçün nəzəri-praktiki əhəmiyyətlidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalə Azərbaycanda sosial müdafiənin tarixən inkişafında sosial müdafiə mexanizmlərinin əhalinin rifahının təmin olunmasındakı rolu və sahələrarası əlaqələrin iqtisadi motivi öyrənilməklə, daha optimal islahatlılıq mühitinin formalaşması üçün strateji baxış formalaşdırır.

Açar sözlər: sosial müdafiə, sosial müdafiənin təşkili, sosial müdafiənin idarə olunması, sosial müdafiənin komponentləri, sosial müdafiənin təkmilləşdirilməsi.

Giriş

Müasir şəraitdə sosial müdafiə sahəsi sosial siyasətin iqtisadi müstəvidə həyata keçirilməsi istiqamətlərindən bir olmaqla, dövlət tənzimlənilməsinin predmetidir. Dövlətin sosial siyasətinin çərçivələri də sosial müdafiənin prioritetlərinin müəyyənləşdirilməsində həlledici rola malikdir.

Sosial müdafiənin təşkili nəticəsi olaraq baş verən inkişaf prosesinin özünün nəticəsində sosial müdafiənin lokal şəraitdə tətbiqi təcrübəsi formalaşır. Sosial müdafiənin inkişafında tətbiq edilən islahatlılıq tədbirlərinin əsas istiqamətləri, əsas götürülən dövlət proqramları üzrə müəyyən edilən müddətli inkişaf konturları sosial müdafiənin retrospektiv yanaşmada təşkili xüsusiyyətlərini ortaya çıxarır. Sosial müdafiənin təşkili xüsusiyyətləri qoyulmuş hədəflərə münasibətdə sahənin

idarə olunmasının səmərəliliyinin qiymətləndirilməsi üçün istiqamətlərin müəyyən olunması üçün baza əhəmiyyətini daşıyır. Həmin xüsusiyyətlərin tədqiq edilərək öyrənilməsi isə özlüyündə sosial müdafiənin növbəti dövr üçün islahatlarının əsas istiqamətlərini, əhatə dairəsini və öyrənilmiş “dərslər”dən yola çıxaraq reallaşdırılması daha çox ehtmiallar ehtiva edən hədəflərinin dəqiqləşdirilməsi üçün seçim imkanları formalaşdırır.

Sosial dövlət modeli ilə irəliləyən Azərbaycan Respublikasında sosial müdafiə sahəsinin ötən inkişaf dövründə xeyli istiqamətlərdə uğurlu və ya müəyyən mexanizmlər üzrə elementlərə münasibətdə daha az effektiv yerinə yetirildiyini söyləyə biləcəyimiz idarəetmə təcrübəsi formalaşmışdır. Həmin istiqamətlər və mexanizmlərin sosial müdafiə sahəsinin əlaqədar olduğu sosial-iqtisadi münasibətlərlə əlaqədə əhali rifahının təmin olunmasındakı rolunun elmi yanaşmada araşdırılması növbəti strateji hədəflərin daha effektiv əsaslar üzrərndə formalaşdırılması üçün imkanlar açır. Bu baxımdan Azərbaycan Respublikasında sosial müdafiənin perpsektiv inkişafı üçün də bu məsələlərin elmi tədqiqat obyektinə alınması nəzəri olmaqla yanaşı, praktiki əhəmiyyət kəsb edir.

Sosial müdafiənin təşkili təcrübəsinin elmi-nəzəri təhlil edilməsi və əsas xüsusiyyətlərinin qiymətləndirilməsi əhəmiyyəti Azərbaycanda yaxın və uzunmüddətli perspektiv üçün önəmli strateji konturların müəyyən edilməsi imkanlarını da formalaşdırması ilə bağlıdır.

Qeyd etməliyik ki, müşahidələrimiz və son axtarışlarımız göstərir ki, sosial müdafiə və təminatla bağlı getdikcə daha çox elmi yazılar ərsəyə gətirilməsinə baxmayaraq, bilavasitə seçilən mövzu üzrə tədqiqatlar aparılmamışdır. Bununla əlaqədar mövzunun işlənilməsində müəllif mülahizələrinin daha çox çəkiyə malik olması, həmçinin müvafiq normativ sənədlərə istinadlardan istifadə zəruri mahiyyətdə olmaqla özünü göstərməkdədir.

Azərbaycanın sosial müdafiə məkanında inkişafın əsasları

Sosial müdafiə sistem olaraq ölkə daxilində formalaşan sosial və iqtisadi ehtiyaclar, eyni zamanda beynəlxalq əməkdaşlıq müstəvisində müəyyən edilən çərçivələrin təsiri şəraitində müvafiq normativ, təşkilati və idarəetmə tədbirləri müstəvisində kompleks uyğunlaşdırılma məqsədilə həyata keçirilən fəaliyyət nəticəsində formalaşaraq yeni xüsusiyyətlər kəsb edir.

Müasir şəraitdə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıqların qurulması, bu çərçivədə müxtəlif sosial əsaslı əhali qruplarının sosial müdafiəsinin həyata keçirilməsinin ümumbəşəri standartlarının gözlənilməsi və bununla qlobal miqyasda insanları sosial-iqtisadi proseslərin mənfi (kənar) təsirlərindən qorumaqla cəmiyyət həyatının stabilliyinin təmin edilməsi və bununla rifahının təmin edilməsi və yüksəldilməsi məqsədini daşıyan müxtəlif beynəlxalq konvensiyaların ölkələr tətəfindən tədricən ratifikasiya edilməsi də həmin ölkələrdə sosial müdafiə sisteminin formalaşması amili kimi çıxış edir, lakin tədqiqatlar səviyyəsində də hesab edilir ki, hər hansı ölkənin tarixi inkişaf prosesində sosial müdafiə ilə bağlı formalaşan model digər bir, yaxud bütün dünya ölkələri üçün tam tətbiq imkanları da yaratmamaqdadır. Bu mənada milli sosial müdafiə sisteminin digər inkişaf etmiş sistemlərə yaxınlaşdırılması məqsədilə nümunə (örnək) olaraq götürülərək tədqiq edilən istənilən ölkə modeli üzrə meyarların (məs., sosial prioritetliyin əsas götürüldüyü İsveç modeli, iqtisadi və sosial prioritetlərin qarışığına əsaslanan Almaniya modeli, yaxud xidmət keyfiyyətinin əsas götürüldüyü ABŞ modeli və s. kimi) dəqiq öyrənilərək yerli spesifik xüsusiyyətlərə uyğunlaşdırılmaqla və əlavə elementlərin də daxil edilməsilə tətbiqi şəraitində müsbət nəticələr əldə olunması mümkün hesab edilir [1].

Ölkə daxilində sosial müdafiənin sosial və iqtisadi təsirliliyi və ya sosial müdafiə imkanları əhalinin həyat səviyyəsinə təsir göstərilməsi imkanları ilə birbaşa əlaqəlidir. Sosial müdafiənin çoxistiqamətli və ya çoxmexanizmli sistem quruluşuna malik olması onun sosial əhatəsini genişləndirmək üçün mühüm şərtləndəndir.

Ölkələrin tarixi inkişafında sosial müdafiənin də inkişafı uzunmüddətli dövr nəticəsində tətbiq edilən dəyişikliklərin nəticəsi olaraq, belə demək mümkünsə, sistem olaraq püxtələşir.

Məsələn, 1883-cü ildə ilk dəfə olaraq Almaniyada xəstəliklə əlaqədar sığortalanmanın tətbiqindən sonra bu sığorta mexanizmi 1925-ci ilə qədər yalnız dünyanın 27 ölkəsi, 1939-cu ilə qədər

əlavə olaraq 8 ölkə, sonrakı on ildə isə 16 ölkəsində tətbiq edilmiş, sosial sığortanın inkişafı əsasən İkinci Dünya müharibəsindən sonrakı ərəfədə baş vermişdir [2, s. 93].

Bu kimi məqamlar sosial müdafiənin transformasiyasının bilavasitə iqtisadi islahatlardan fərqli olaraq sosial müdafiə islahatları şəraitində nəticələrinin daha gec hiss olunması təbiətini vurğulamağa əsas verən məqamlardan biridir.

Azərbaycan Respublikası qısa zaman müddəti ərzində iqtisadi və digər resursların əhalinin sosial müdafiəsinə yönəldilməsi baxımından müsbət təcrübəyə malik ölkələrdəndir. Belə ki, planlı iqtisadiyyatdan bazar iqtisadi sisteminə keçid etmiş ölkələr arasında bu yolda yaranan sosial-iqtisadi çətinliklərin tənzimlənilməsi nəticələri bu barədə mülahizələr irəli sürməyə imkan verir. Sosial müdafiənin müxtəlif istiqamətləri üzrə qeydə alınmış müvafiq statistik fəaliyyət göstəriciləri də bu fikri deməyə əsaslar verir.

Azərbaycanın beynəlxalq səviyyədə sosial müdafiə (və təminatın) təşkili və həyata keçirilməsi ilə bağlı əsas normativ sənəd hesab edilən - Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimal normaları haqqında" 102 saylı Konvensiyasının prinsiplərini, həmçinin 202 saylı tövsiyəsini əsas götürməsi insan ehtiyaclarını nəzərə alan minimal sosial müdafiə səviyyələrinin nəzərə alındığı milli sosial müdafiə sisteminin qurulması üçün mühüm çərçivə təsirinə malikdir. Eyni zamanda sosial təminat hüququ BMT tərəfindən qəbul edilmiş bir sıra fundamental hüquqi sənədlərlə (Ümumdünya İnsan Haqları Bəyannaməsi, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (Maddə 9, 10 (2) və 10 (3)), Qadınlara qarşı Ayrı-seçkiliyin Hər Şəklinin Ləğv Edilməsi Konvensiyası (Maddə 11 (1) (e), 11 (2) (b) və 14 (2)), Uşaq Hüquqları Konvensiyası (Maddə 26, 27 (1), 27 (2) və 27 (4)), Hər cür İrqi Ayrı-seçkiliyin ləğv edilməsi haqqında Konvensiya (Maddə 5 (e) (iv)), Bütün Miqrant İşçilərin və Ailələrinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya (III hissə, maddə 27; IV hissə, maddə 54) və Əlillərin Hüquqları Konvensiyası)) təsbit edilmişdir [3, s. 5-7].

Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycanda sosial müdafiənin təşkilinin ilkin vacib əlamət olaraq, sistemli hal alması müəyyən dövr tələb etmişdir. 1991-ci ilin 18 oktyabr tarixində ikinci dəfə elan olunmuş dövlət müstəqilliyinin ilk illərində demək olar ki, əhalinin sistemli sosial müdafiəsi təşkil oluna bilməmişdir. Bu illərdə, demək olar ki, əhalinin sosial müdafiəsi təkcə sovet sistemindən qalmış idarəetmə və hesablama yanaşmaları əsasında da olsa belə, əsasən pensiya təminatı sistemi vasitəsilə aparılmışdır. Sosial sığorta vəsaitlərinin toplanıldığı vahid fondun olmaması, ünvanlı dövlət sosial yardımı sisteminin mövcud olmaması, müavinətlərlə təminatın da sosial sığorta prinsiplərinə əsaslanmadan əvvəlki dövrlərdən qalmış, qarışıq və müxtəlif güzəştlərə əsaslanan normativ yanaşmalarla, bəzən isə subyektiv maraqlardan asılı olaraq icra edilməsi sistemli sosial müdafiənin həyata keçirilməsi qarşısında dayanan nəzərəçarpan təşkilati problemləri təşkil etmişdir.

1992-ci ildə ölkədə müəssisə və təşkilatların sosial sığorta ayırmalarına və onların məqsədyönlü xərclənməsinə nəzarəti gücləndirmək, əhalinin sosial müdafiəsi sahəsində olan paralelçiliyi ləğv etmək məqsədi ilə Azərbaycan Respublikasının Pensiya Fondu və Azərbaycan Respublikasının Sosial Sığorta Fondu bazasında bütün müəssisə və təşkilatlarından sosial sığortaya ayırmaların tam həcmdə daxil olduğu Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması sosial sığorta münasibətlərinin formalaşması üçün ilkin başlanğıc rolunu oynadı [4].

Vətəndaşların pensiya təminatının yeni əsaslarla reallaşdırılması istiqamətində yaradılan qanunvericilik ilk vaxtlarda müəyyən problemlərin həllinə köməklik göstərsə də, bu istiqamətin normativ müstəvidə təkmilləşdirilməsi ilə bağlı sözügedən normativ akta 1994-2007-ci illərdə ümumilikdə 27 ayrı qanunla dəyişiklik aparılmışdır [5].

Ölkənin sosial müdafiə sistemində köklü dəyişikliklərə başlanılmasını Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2001-ci il tarixli 767 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2001-2005-ci illər üçün inkişaf hədəflərini müəyyən edən "Azərbaycan Respublikasında pensiya islahatı Konsepsiyası"nın qəbulu ilə əlaqələndirmək olar [6].

Belə ki, bu strateji-normativ sənədlə müəyyən olunmuş çərçivədə vətəndaşların pensiya təmi-

natı üçün etibarlı maliyyə təminatının yaradılması, pensiya təminatının bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılması, sosial sığorta haqları ilə ödənişlər arasındakı əlaqənin uyğunlaşdırılması, vətəndaşların minimum yaşayış səviyyəsini təmin edən pensiyaların müəyyən edilməsi kimi istiqamətlər növbəti məqsəd və prinsiplər olaraq müəyyən edilmişdi. Bu konsepsiyanın əsas təşkilati-idarəetmə üstünlüyünü - bu əsasda informasiya texnologiyalarının tətbiqi bazasında pensiya təyinatı üçün zəruri olan məlumatların və ödənilmiş sığorta haqları barədə məlumatların uçotunu nəzərdə tutan və həmin məlumatlar əsasında formalaşan sığorta kapitalı hesabına elektronlaşdırılmış şəkildə pensiya təyinatına imkan verən, eyni zamanda məcburi dövlət sosial sığorta haqları hesabına maliyyələşdirilən sosial müavinətlərlə təminatın həyata keçirilməsi üçün təkmil mexanizmin yaradılması təşkil etmişdir ki, bu da sonrakı illərdə sosial sığorta sistemi ilə bağlı digər dövlət konsepsiyalarının həyata keçirilməsi üçün bünövrə rolunu oynamışdır.

2006-cı ilin 1 yanvar tarixindən qüvvəyə minən “Əmək pensiyaları haqqında”Qanun isə müasir şərtlərlə pensiya təminatının idarəetmə əsaslarının daha da aydınlaşdırılmasına gətirib çıxardı. Bu dəyişikliyin xüsusi əlamətlərindən biri - əslində iqtisadi nöqteyi-nəzərdən tətbiqi məqsədləri fərqli olan - sosial yardım və pensiya təminatının (biri bilavasitə yoxsulluqla mübarizə, digəri isə gəlirlərin yenidən bölgüsü və ya tarazlaşdırılması məqsədli və sosial sığorta mahiyyətli olmaqla) maliyyə mənbələrinin ayrılmasının baş verməsindədir. Belə ki, pensiya təminatından fərqli olaraq Azərbaycanda ünvanlı dövlət sosial yardımının sistemli tətbiqinə daha gec bir müddətdə - 2006-cı ilin yanvarın 1-dən etibarən başlanılmışdır ki, yalnız bu zaman bu mexanizmin konkret olaraq dövlət büdcəsi hesabına maliyyələşdirilməsi qanunvericilik səviyyəsində təsbit olunmuşdur.

Azərbaycan Respublikasında sosial müdafiənin formalaşmasının əsas istiqamətləri

Sosial müdafiədə islahatlılıq imkanlarının başlıca olaraq pensiya sistemi ətrafında təmərküzləşdirilməsinin də təsirlərilə 2006-2013-cü illərdə əmək pensiyalarının orta aylıq məbləğinin 5,7 dəfə yüksəldilməsinə və beləliklə də, bu göstərici üzrə ölkəmizin postsovet coğrafi məkanında öncül mövqelərdə qərarlaşmasına gətirib çıxarmışdır ki [7], bu da pensiya təminatının ölkədə sosial müdafiənin ən aparıcı həlqəsinə çevrilməsini təmin etmişdir. Qeyd edilən bu konsepsiyanın nəzərəçarpan prioritetlərini - cari, ortamüddətli və uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunması, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktual təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması, sığorta prinsiplərinə uyğun olmayan ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən bir sıra öhdəliklərin dövlət öhdəliyi kimi fərqləndirilməsi, əmək pensiyalarının könüllü yığım komponentinin real praktikada tətbiqi və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi kimi mühüm fundamental məqsəd və vəzifələr təşkil etmişdir. Bu konsepsiya sığorta prinsiplərinə uyğun olmayan, yəni güzəştli və xüsusi şərtlərlə, habelə erkən pensiyaya çıxma hallarında pensiya məbləği ilə ödənilən sığorta haqqı arasında mütənasibliyin təmin edilməsi məqsədi ilə pensiya yaşının optimal həddinin müəyyən edilməsi, zərərli və təhlükəli işlərdə çalışanlar, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar və digər kateqoriyalar üçün pensiya təyinatı və sığorta haqqı normativləri şərtlərinə yenidən baxılmasını nəzərdə tutmuşdur.

Qeyd etmək lazımdır ki, pensiya qanunvericiliyinə 2017-ci ildə aparılmış dəyişikliklər 2014-2020-ci illər üzrə növbəti müvafiq konsepsiya sənədinin sığorta prinsiplərinin gücləndirilməsi, maliyyə dayanıqlılığının artırılması istiqamətində ən əhəmiyyətli qanunvericilik islahatları hesab edilə bilər. Bu çərçivədə aparılmış dəyişikliklərə əsasən, sığorta əsası olmayan və güzəştli şərtlərlə müəyyən olunan pensiyalar üzrə xərclərin dövlət öhdəliyi hesab edilərək dövlət büdcəsi hesabına maliyyələşdirilməli olması təsbit olundu. Həmçinin həmin islahatlar güzəştli şərtlərlə pensiya təyinatına imkan verən şərtlərlə bağlı bir sıra məhdudlaşdırılmalarla xarakterizə edilə bilər. Eyni vaxtda əmək pensiyalarının dövlət büdcəsindən maliyyələşdirilməsi aparılmaqla pensiya məbləğini təşkil edən iki komponent üzrə (baza və sığorta hissələri) baza yanaşmasının ləğvi, minimum pensiya məbləği, bu məbləğin hesablanmasını təmin edən minimum pensiya kapitalı kateqoriyasının təsis edilməsi və bütün pensiyaların sığorta hissəsindən ibarət olmaqla konvertasiya

olunmaqla yenidən hesablanması, nəticədə minimum pensiya şərtini təmin etməyən pensiyaların bütünlüklə müəyyən edilən minimum pensiya məbləğinə çatdırılması, habelə sığortaolunanlar tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının daha çox hissəsinin - 50 faizinin deyil, artıq 90 faizinin pensiya hesablanması üçün əsas hesab edilən sığorta kapitalına yönləndirilməsi təmin olundu ki, bu, sonrakı illərdə pensiya məbləğlərinin daha sürətli artımı üçün şərait yaratmışdır. Qeyd edilən dövrdən sonrakı illərdə orta pensiya məbləğlərinin daha çox artma tendensiyası göstərməsini məhz bu dəyişikliklərin təsirinin nəticəsi olaraq qiymətləndirmək də olar. Belə ki, açıqlanan dövlət statistikasına əsasən hesablamaq olar ki [8], pensiya məbləğlərində dinamik artımın təzahür etdiyi 1995-2019-cu illəri əhatə edən dövr ərzində təyin olunmuş pensiyaların orta məbləği üzrə davamlı artım tendensiyası saxlanılmaqla, 2007-2019-cu illərdə 5,4 dəfəyədək, 2019-2024-cü illər ərzində isə təqribən 2 dəfəyədək artım qeydə alınmış, qeyd olunan ümumi dövr ərzində orta illik artım tempi əmsalı təqribən 1,2 təşkil etmişdir. 2024-cü ilin əvvəlinə Azərbaycanda cəmi pensiyaçıların sayı 1095958 nəfər, təyin edilmiş pensiyaların orta məbləği 441,3 manat, yaşa görə orta pensiya məbləği isə 474,6 manat təşkil etmişdir.

Rəsmi statistika əsasında hesablamalarımız göstərir ki, 2023-cü ildə Azərbaycanda ev təsərrüfatlarının gəlirlərinin orta hesabla 20 faizdən artıq hissəsi sosial ödəniş mənşəli transfertlər hesabına formalaşmaqdadır. Həmin transfertlərin təqribən 86 faizini əhəmiyyətli gəlir istiqaməti hesab olunan pensiya ödənişləri təşkil etməkdədir. Transfertlərin regional paylanması ilə bağlı göstəricilər arasında kəskin diferensiasiyanın da olmaması sığorta-pensiya sisteminin təşkili ilə bağlı müsbət meyllərdən hesab edilə bilər [9].

Qeyd olunanlarla yanaşı, sosial müdafiə sisteminin inkişafında pensiya təminatının digər sosial müdafiə proqramları (mexanizmləri) ilə müqayisədə daha nəzərəçarpan təkamül göstərdiyini də qeyd etmək lazımdır. Bunu sosial müdafiə sistemində pensiya təminatının daha qabaqcıl yer alması, bu mexanimə ən geniş həssas sosial təbəqə olan pensiyaçıların rifahının təminatçısı kimi yanaşılmaqla, keçid iqtisadiyyatı şərtlərində dəyişkən sosial-iqtisadi şərtlərdə qısa müddət ərzində əhalinin yoxsulluqdan qorunması instinktlərinin və minimal sosial rifahının formalaşdırılmasının təmin edilməsinə yönəlmiş strateji hədəflərin aparılmış islahatların ana xəttini formalaşdırması ilə əlaqələndirmək mümkündür. Əlbəttə, burada aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə istifadə olunan ehtiyac meyarının məbləğinin 2011-ci ildəki 75 manatdan 2,3 dəfə artırılaraq 2021-ci ildə 170 manata çatdırılması [10], eləcə də bu istiqamətdə ayrılan vəsaitlərin ailəbaşına və ya adambaşına bölgüsü göstəricilərinin də baş vermiş artımların timsalında ünvanlı dövlət sosial yardımı, habelə əlilliyi olan şəxslərin və digər sosial həssas kateqoriyadan əhalinin sosial müdafiəsi ilə bağlı əhəmiyyətli addımların müsbət təsirlərini də gözardı etmək mümkün deyildir.

Azərbaycanda sosial müdafiənin təşkilinin önə çıxan başqa bir aspektini – sosial müdafiədə innovativ yanaşmaların tətbiqi hesab etmək olar. Qeyd edə bilərik ki, Azərbaycanda artıq illərdir ki, bank kartlarından istifadə edilməsi pensiyaların, həmçinin sosial müavinətlərin əhaliyə çatdırılmasının əsas üsulu kimi istifadə olunmaqdadır. Ölkədə bu istiqamətdə növbəti hədəfləri müəyyənləşdirən - “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bununla dövlət-özəl tərəfdaşlığının gücləndirilməsinə, maliyyə sektorunun və iqtisadiyyatın inkişafına müsbət təsirlərinin olacağı qiymətləndirilir.

Belə ki, sosial ödənişlərdə banklararası rəqabətin gücləndirilməsi, pensiya və müavinətlərin alınması üzrə bank seçimində sərbəstliyin təmin edilməsi nəzərdə tutulur. Bu əsasda maliyyə dərinliyini ifadə edən göstəricilərin davamlı yaxşılaşacağı, iqtisadi subyektlərin milli ödəniş sistemində aparılan əməliyyatlarının həcminin 25% artacağı, o cümlədən ödəniş kartları ilə aparılan əməliyyatlarda nağdsız əməliyyatların payının 55%-ə çatacağı hesab edilir [11].

Ölkədə sosial müdafiədə innovativ metodların tətbiqinin digər bir üstün istiqaməti olaraq, sosial müdafiə xidmətlərinin təşkilində əksər istiqamətlərdə elektronlaşdırılmanın daha qabarıq tətbiq edilməsi hesab edilə bilər.

Sosial müdafiədə bilavasitə innovativ təkmilləşdirilmə tədbiri olmaqla yanaşı, eyni vaxtda sin-

xron olaraq sosial müdafiənin təşkilati-idarəetmə, normativ tənzimləmə və sistemlilik aspektlərində təkmilləşdirilməsini ifadə edən mərkəzləşdirilmiş elekron idarəetmə sisteminin yaradılması Azərbaycanda sosial müdafiənin təkmilləşdirilməsində fundamental dəyişikliklərdəndir. AR Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə” və “e-sosial” internet portalı haqqında Əsasnamə” təsdiq edilmişdir. Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, habelə Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər sahələrdə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, habelə Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər sahələrdə informasiyanın yaradılması, toplanılması, işlənməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılmasında Mərkəzləşdirilmiş elektron informasiya sisteminin tərkibində yaradılmış müvafiq sahələr üzrə müxtəlif reyestrlərdən istifadə olunur ki, bu sistemlər üzrə məlumatların idarə edilməsi və qərar qəbulu digər dövlət orqanları və qurumlarından zəruri informasiyaların avtomatik inteqrasiyası şəraitində aparılır. “e-sosial” portalı isə MEİS bazası üzərində məlumatlardan istifadəyə əsalanmaqla əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində xidmətlərin elektron təşkili üzrə vahid platforma üzərindən elekron qaydada təmin edilməsini yerinə yetirir [11]. Portal şəffaflıq, istifafədə rahatlığı, səmərəlilik, təhlükəsizlik, fasiləsizlik, operativlik prinsipləri baxımından sosial xidmətlərə əlçatanlığı daha da artırmışdır. “e-sosial” internet portalının hazırda 1 milyon 520 minədək aktiv istifadəçisinin olması, həmin portal vasitəsilə 30-dan çox növdə elektron arayış əldə etmək mümkün olması, qurulmasından keçən ötən dövrdə “e-sosial” internet portalından istifadə sayının 82,7 milyonu ötməsi bu sistemin tətbiqinin müsbət təsirlərini göstərməkdədir [12].

Beləliklə, bu və burada məhdud imkanlardan irəli gələrək sadalaya bilmədiyimiz fərqli istiqamətlərin də olduğunu nəzərə alaraq, hesab etmək olar ki, Azərbaycan Respublikasında sosial müdafiənin təşkilində ilk növbədə sığorta-pensiya sistemi və sonradan ünvanlı dövlət sosial yardım sistemlərinin diqqət mərkəzinə alınması bu mexanizmlərin sosial müdafiənin tarixi inkişafı prosesində prioritet olaraq formalaşması ilə nəticələnmişdir. Eyni zamanda ölkədə sosial dövlət quruculuğunun ilk illərindən sığorta-pensiya sisteminin yoxsulluqla mübarizədə, eləcə də əhalinin həyat səviyyəsinin təmin edilməsi və yaxşılaşdırılması üçün əsas mexanizm olaraq müəyyən edilməsinin qısa müddətdə müsbət nəticələr verməsi inkişafın indiyəqədərki mərhələsində bu sistemin strateji əhəmiyyət qazanmasına da gətirib çıxarmışdır.

Nəticə

Təbiidir ki, sosial müdafiə sahəsi spesifikasının mürəkkəbliyindən və çoxprizmalılığından irəli gələrək çoxsaylı faktorların təsiri ilə formalaşmaqda olan və daim dəyişən xüsusiyyətlər kəsb etməkdədir. Məqalədə (istənilən halda) məhdud zaman və tədqiqat məkanı çərçivəsində Azərbaycanın sosial müdafiə modelinin formalaşmasında həlledici rol oynamış əsas sosial-iqtisadi proseslər və onların sosial müdafiə sisteminin inkişafına qarşılıqlı təsirlərinin əsas xüsusiyyətlərinə icmallaşdırılmış iqtisadi-nəzəri baxış təqdim olunmuşdur. Hesab edirik ki, həmin amillər ətrafında təfərrüatlı təhlili yanaşmaların verilməsi ayrıca (əlavə) tədqiqat yazılarının işlənilməsi ilə dəstəklənə bilər. Ötən dövr ərzində, xüsusən ilk dövlət quruculuğu illərində əhalinin həyat səviyyəsinin təmin edilməsi, həmçinin sosial münasibətlərin tənzimlənilməsi əsas tutularaq Azərbaycanda pensiya sisteminin əsas müdafiə mexanizmi kimi qəbul edilərək tətbiqi ilə sosial müdafiənin digər mexanizmlərinin inkişafının nisbətən geridə qalması arasında məntiqi əlaqələrin olduğunu inkar etməmək lazımdır. Sonrakı illərdə sığorta-pensiya sisteminə paralel olaraq əhəmiyyətli sosial müdafiə mexanizmi hesab edilən ünvanlı dövlət sosial yardımının tətbiqinə daha gec başlanılması da nəzərə alınmaqla bu sistemin inkişafı da hələlik formalaşma mərhələsində hesab edilə bilər. Geniş mənada sosial müdafiə mexanizmi hesab edilə biləcək icbari tibbi sığorta mexanizmlərinin tətbiqi də uzunmüddətli tarixə malik deyildir. Əlilliyi olan şəxslərlə bağlı sosial müdafiə tədbirlərinin, xüsusən təyinatla bağlı meyarların təkmilləşdirilməsi ilə bağlı xüsusən son illərdə əhəmiyyətli islahatların aparılması məlum olsa da, ümumən ölkədə əlilliyi olan şəxslərin sayının əhalidə payı baxı-

mından qiymətləndirilməmiş (aşkar edilməmiş) əlillik vəziyyətlərinin müəyyən edilməsilə onların müvafiq müavinətlərlə təmin olunması məqsədilə tədbirlər görülməsi ölkədə sosial müdafiənin inkişafı baxımından nəzərə alına bilər. Ümumilikdə sığorta-pensiya sistemi, ünvanlı dövlət sosial yardımı, əlilliyi olan şəxslərin sosial müdafiəsi tədbirlərinin birinci növbədə diqqətə alınmasının vacibliyi ilə yanaşı, əhalinin bütün yaşda və sosial statusda olan kontingentlərinə istiqamətlənən təminat xarakterli (reabilitasiya, sosial xidmətlər, mənzil təminatı və s.) sosial müdafiə mexanizmləri ilə də maksimum əhatə olunması, bu istiqamətlərdə daha geniş maliyyə resurslarının ayrılmasına imkan verəcək idarəetmə tədbirlərinin diqqətdə saxlanılması mühüm məsələlərdəndir. Hesab etmək olar ki, ölkədə sosial müdafiə sahəsi sistemli olaraq növbəti transformasiya mərhələsini keçməkdədir. Bu mərhələdə sosial müdafiə islahatlarının daha çox xidmətlərin elektronlaşdılması müstəvisində aparılmasına çalışılması aydın nəzərə çarpır. Bu kimi məsələlər də öz növbəsində sosial fayda baxımından xidmətlərin elektronlaşma şəraitində təşkili və təqdim olunmasının sosial müdafiədə alternativ xərclər prinsipilə dəyərləndirilmələrə zərurəti də yeni bir problem olaraq ortaya çıxarır. Belə ki, sosial müdafiə ilə bağlı islahatların effektivliyi istənilən halda ilk növbədə sosial fayda və sistem-idarəetmə xərcləri arasında əlaqənin optimallığı ilə şərtləndiriləcəkdir, başqa sözlə, sosial müdafiədə islahatlılığın əlavə xərclərə tələbat yaratmaqla sosial fayda artımı ilə nəticələnməyəcək elementlərə istiqamətləndirilməsi təkamül xüsusiyyətləri kimi qəbul edilməməlidir. Bu isə ölkədə sosial müdafiə sisteminin dəyişən beynəlxalq və yerli tələblər istiqamətində təkmilləşdirilməsi məsələlərinin idarəetmənin gündəmində saxlanılmasını, sadalanan məsələlər adekvat strateji islahat proqramlarının işlənilməsi və tətbiqini daha da aktuallaşdırır.

ƏDƏBİYYAT

1. Хамидуллин Н. Р. Международные аспекты формирования социальной защиты населения, опыт зарубежных стран //Вестник Оренбургского государственного университета. – 2012. – №. 3 (139). – С. 214-219. (Müraciət tarixi: 05.03.2025).
2. Yazgan T. İktisatçılar için sosyal güvenlik ders notları. – Türk Dünyası Araştırmaları Vakfı İktisadi İşletmesi, 2019.
3. Azərbaycan Respublikasında sosial təminatlar üzrə vəziyyətin tədqiqatı və Beynəlxalq Əmək Təşkilatının "Sosial təminatın minimal normaları haqqında" 102 saylı Konvensiyasının ratifikasiyasının sürətləndirilməsi barədə: [Elektron resurs] / Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası; Beynəlxalq Əmək Təşkilatı; "Xidmət –İş" Həmkarlar İttifaqları Federasiyası.-Bakı, 2021. URL:https://xidmet-is.az/upload/files/fayllar/102-konvensiya.pdf (Müraciət tarixi: 05.03.2025).
4. "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında" 30 sentyabr 1992-ci il tarixli 233 nömrəli AR Qanunu https://e-qanun.az/framework/7782
5. "Vətəndaşların pensiya təminatı haqqında" 23 sentyabr 1992-ci il 305 nömrəli AR Qanunu https://e-qanun.az/framework/7739
6. Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2001-ci il tarixli 767 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında pensiya islahatı KONSEPSİYASI" https://e-qanun.az/framework/4412
7. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 827 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası" https://e-qanun.az/framework/28572
8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. *Təyin olunmuş aylıq pensiyaların orta məbləği* (1995-2024-cü illər) https://www.stat.gov.az/source/healthcare/
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. *Ev təsərrüfatları büdcəsi* URL:https://www.stat.gov.az/source/budget_households/ (Müraciət tarixi: 18.01.2025)
10. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə

sosial-iqtisadi inkişaf strategiyası” URL: https://e-qanun.az/framework/50013 (Müraciət tarixi: 20.01.2025)
11. “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”nin və “e-sosial” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/41978
12. “E-sosial” portalının 1 milyon 520 minədək aktiv istifadəçisi var https://sosial.gov.az/media/xeberler/e-sosial-portalinin-1-milyon-520-minedek-aktiv-istifadecisi-var?hl=az (2024, Aprel 26) (Müraciət tarixi: 06.01.2025).

Эмин Али оглы Алирзаев
Кандидат экономических наук
Азербайджанский Государственный
Экономический Университет (UNEC)
E-mail: alirzayev@gmail.com

Основные характеристики формирования социальной защиты в Азербайджанской Республике

Резюме

Целью исследования является укрепление концептуальных основ для выявления объектов и элементов регулирования, которые остаются неоцененными и нуждаются в совершенствовании в организации и управлении социальной защитой в Азербайджанской Республике с целью разработки перспективного системного развития социальной защиты путем пересмотра приоритетов хронологического развития социальной защиты в этих приоритетных областях.

Методология исследования – Исследование основано на общенаучных методах анализа на уровне авторских оценок, основанных на изучении основных законодательных реформ и стратегических государственных программ, реализуемых в направлении совершенствования организации социальной защиты на уровне управления в сфере.

Результаты исследования – формируют картину компонентов социальной защиты, требующих улучшения в ближайшем будущем в связи с поставленными на ретроспективной основе целями в направлении обеспечения системной социальной защиты в развитии социальной защиты в Азербайджане.

Прикладная значимость исследования – Принимая во внимание основные сделанные выводы, исследование имеет теоретическую и практическую значимость для взятия под контроль связей, требующих улучшения на уровне управления, для обеспечения системного развития социальной защиты в следующей перспективе.

Уникальность и научная новизна исследования – в статье изучается роль механизмов социальной защиты в обеспечении благосостояния населения и экономический мотив межсекторальных отношений в историческом развитии социальной защиты в Азербайджане, а также формируется стратегическое видение для формирования более оптимальной среды реформ.

Ключевые слова: социальная защита, организация социальной защиты, управление социальной защитой, компоненты социальной защиты, совершенствование социальной защиты

Emin Ali Alirzayev
PhD in Economics
Azerbaijan State University of Economics (UNEC)
E-mail: alirzayev@gmail.com

The main characteristics of the formation of social protection in the Republic of Azerbaijan

Summary

The purpose of the study is to strengthen the conceptual foundations for identifying regulatory objects and elements that remain unassessed and need improvement in the organization and management of social protection in the Republic of Azerbaijan in order to develop a perspective systematic development of social protection by reviewing the priorities of the chronological development of social protection in these priority areas.

Research methodology – The study is based on general scientific analysis methods at the level of author's assessments, based on the study of the main legislative reforms and strategic state programs implemented in the direction of improving the organization of social protection at the management level in the field.

The results of the study – form a picture of the social protection components that require improvement in the near future in relation to the targets set on a retrospective basis in the direction of ensuring systematic social protection in the development of social protection in Azerbaijan.

Applied significance of the study – Taking into account the main conclusions drawn, the study is of theoretical and practical importance for taking control of the links that need improvement at the management level to ensure the systematic development of social protection in the next perspective.

Originality and scientific novelty of the study – the article studies the role of social protection mechanisms in ensuring the well-being of the population and the economic motive of inter-sectoral relations in the historical development of social protection in Azerbaijan, and forms a strategic vision for the formation of a more optimal reform environment.

Keywords: social protection, organization of social protection, management of social protection, components of social protection, improvement of social protection.